**2015-ci il üzrə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Etik hesabatı**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən planda nəzərdə tutulan tədbirlərin icrası məqsədi ilə müvafiq əmrlə illik iş planı təsdiq edilmiş və digər bir sıra mühüm işlər həyata keçirilmişdir.

Belə ki, Komitə daxilində 2015-ci ilin 12 oktyabr və 19 noyabr tarixlərində dövlət qulluqçuları üçün etik davranış qaydaları üzrə: peşəkarlıq və fərdi məsuliyyətin artırılması; insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə hörmət; mədəni davranış; əmr, sərəncam və tapşırıqların yerinə yetirilməsi; korrupsiyanın qarşısının alınması mövzusunda təlimlər təşkil edilərək həyata keçirilmiş və gələcəkdə də bu və digər etik davranış qaydaları ilə bağlı təlim və treninqlərin mütəmadi olaraq keçirilməsi nəzərdə tutulmuşdur.

Dövlət qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması məqsədilə “Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları” Komitənin rəsmi internet saytında (www.azstand.gov.az) “Etik qaydalar” bölməsində yerləşdirilmişdir.

Həmçinin Komitədə çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydaları pozulduqda vətəndaşların “963-Qaynar xətt” əlaqə mərkəzinə müraciət edə bilmələri barədə məlumat mütəmadi olaraq kütləvi informasiya vasitələrində verilir.

Cari il ərzində vətəndaşlardan korrupsiya hüquqpozma və korrupsiyaya şərait yaradan hüquqpozma halları ilə əlaqədar 20 şikayət ərizəsi daxil olmuşdur. Həmin şikayət ərizələri Komitənin daxili nəzarət qurumu tərəfindən baxılaraq araşdırılmış, müvafiq izahatlar alınmış və müraciətdə göstərilənlər öz təsdiqini tapmamışdır.

Bundan başqa 2015-ci il ərzində Komitə Aparatında və Komitənin strukturuna daxil olan qurumlarda çalışan 10 (on) dövlət qulluqçusu barəsində etik davranış qaydalarının pozulması halları ilə əlaqədar intizam tənbeh tədbiri tətbiq edilmişdir.